*«Təsdiq edirəm»*

*Azərbaycan Respublikası*
*Milli Karate Federasiyasının*

*Prezidenti__________________ Y. Bəşirov*

*«___» _________________2021-ci il*

# Azərbaycan Respublikası Milli Karate Federasiyasının Böyüklər arasında 29-cü Respublika çempionatının

# ƏSASNAMƏSİ

**Nəzərinizə çatdırmaq istərdik ki, 09 yanvar 2022-ci il tarixlərində Milli Karate Federasiyasının Böyüklər arasında Respublika Çempionatı keçiriləcəkdir.**

## *Çempionatın məqsəd və vəzifələri:*

1. Azərbaycan Respublikasının bütün ərazisində karate idman növünün inkişaf etdirilməsi;
2. İdmançı və hakimlərin ustalığının artırılması;
3. Respublikada karate üzrə fəaliyyət göstərən cəmiyyətlərin və klubların işinin təkmilləşdirilməsi;
4. Beynəlxalq turnirlərdə, Dünya və Avropa çempionatlarında iştirak etmək üçün yığma komandaya namizədlərin seçilməsi;

## *Çempionatı keçirən və təmin edən təşkilatlar:*

1. Yarışların hazırlanma və keçirilməsinə ümumi rəhbərliyi Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi başda olmaqla, Azərbaycan Karate-Do Federasiyaları Assosiasiyasının və Milli Karate Federasiyasının İdarə Heyəti həyata keçirir;
2. Yarışların keçirilməsi Milli Karate Federasiyasının Hakimlər Komitəsinə həvalə olunur;
3. Çempionatın Təşkilat Komitəsi aşağıdakılara görə məsuldur:
   - Yarış iştirakçılarının, məşqçilərin, təmsilçilərin və hakimlərin qarşılanması və yerləşdirilməsi;
   - Yarışların keçirilməsi üçün yerin hazırlanması, yarışların reklamının təşkili və tamaşaçılara zəruri informasiyanın verilməsi;
   - Xatirə atributikasının buraxılışı;
   - Tibbi-sanitar xidmətin təmin edilməsi;
   - Asayişin təmin olunması və texniki təhlükəsizliyə riayət edilməsinin təşkili.
   - COVID-19 sanitar protokolu riayət edilməsinin təşkili.

## *Çempionatın keçirilmə vaxtı və yeri:*

1. Çempionat 09 yanvar 2022-ci il tarixlərində Bakı şəhəri, Hövsən qəsəbəsində yerləşən **FHN İdman Sağlamlıq Klubunda** keçiriləcəkdir;
2. Mandat komissiyası 2022-ci il yanvar ayının 07-də saat 12-dən 18-dək Bakı, Sumqayıt və Abşeron rayonu üçün, 08-də isə qalan rayonlar üçün Heydar Əliyev pr. 96A ünvanında yerləşən Milli Karate Federasiyasının ofisində (ofis "ASK Arena"-nın 1-ci mərtəbəsindədir) fəaliyyət göstərəcəkdir. Sifarişlə birgə iştirakçıların şəxsiyyətini təsdiq edən sənədin əslinin və budo pasportunun mandat komissiyasına təqdim edilməsi vacibdir. Sifarişlərin təqdim edilməsi zamanı iştirakçıların tərəzi ilə çəkisi mandat

komissiyası tərəfindən müəyyənləşdiriləcəkdir. Bu məqsədlə təmsilçi idmançıların iştirakı ilə birgə sifariş və sənədləri mandat komissiyasına təqdim etməlidir.

3. Təntənəli açılış mərasimi 09 yanvar 2022-ci il tarixində saat 16:00-da keçiriləcəkdir.
4. Çempionatda hakimlik edən hakimlər və bütün məşqçilər mütləq 08 yanvar 2022-ci il tarixində saat 14-dən 16-dək Heydar Əliyev pr. 96A ünvanında yerləşən "ASK Arena"-nın İdman zalında keçiriləcək hakimlik seminarında iştirak etməlidirlər.

## *Çempionatın proqramı:*

<u>Böyüklər (3 dəqiqəlik döyüş):</u>

- Kişilər – -60 kq, -67 kq, -75 kq, -84 kq və +84 kq
- Qadınlar – -50 kq, -55 kq, -61 kq, -68 kq və +68 kq

Yeni qaydalara əsasən, kumite yarışlarında döyüş zamanı xallara məhdudiyyət qoyulmur, döyüş bitdikdə daha çox xal toplamış idmançı qələbə qazanır. Döyüş zamanı 8 xal üstünlük əldə edildikdə döyüş dayandırılır və üstünlüyə malik idmançı təmiz qələbə qazanır.

## *Çempionatın iştirakçıları:*

1. Azərbaycan Respublikası Milli Karate Federasiyasının bütün üzvləri çempionatda iştirak etməyə buraxılırlar. ***(İştirakçının yaşını və dərəcəsini təsdiq edən sənəd mütləq mandat komissiyasına təqdim olunmalıdır);***
2. Yarış iştirakçılarının say tərkibi:

**Fərdi Kumite yarışları:**

- Hər klub və ya təşkilatdan, bütün yaş və çəki kateqoriyalarında **2 nəfər iştirakçı buraxılır.**

**Fərdi kata yarışları:**

- Bütün qruplar (oğlanlar, qızlar) – 3 nəfər;

## *Ekipirovka:*

1. Yarış iştirakçılarının ağ rəngli karateqa (kimono), kapa və əl-ayaq nakladkalarında (göy və qırmızı) çıxış etmələri vacibdir. İştirakçının istəyi ilə badajdan da istifadə etmək olar;
2. Hakimlər beynəlxalq qaydalara uyğun hakimlər üçün müəyyən edilmiş formada çıxış edirlər.

## *Maliyyə şərtləri:*

İştirakçı, məşqçi, təmsilçi və hakimlərin yerləşdirilməsi, qidalanması, nəqliyyat və digər xərcləri ezam edən təşkilatın hesabındadır.

## *Qaliblərin və mükafatçıların təltifi:*

1. Qalib və mükafatçılar AKFA və Azərbaycan Respublikası Milli Karate Federasiyasının təsis etdiyi kubok, medal və diplomlarla mükafatlandırılırlar;
2. Mükafatlandırılma mərasimi Bakı şəhər Gənclər və İdman Nazirliyinin nümayəndəsi, AKFA və Milli Karate Federasiyasının İdarə Heyəti tərəfindən icra olunur.

## *Əlavə məlumat:*

Yarış haqqında əlavə informasiya yarışlaradək bilavasitə yarış iştirakçılarına veriləcəkdir. Təşkilat komitəsinin əlaqə nömrələri: **(+99412) 467-10-21; (+99450) 500 08 68.**

**Azərbaycan Respublikası Milli Karate Federasiyasının Böyüklər arasında 29-cü Respublika Çempionatının iştirakçıları üçün**

# S İ F A R İ Ş   B L A N K I

Təşkilat:....................................................................................................................................

Təmsilçi:...................................................................................................................................

Rəhbər:......................................................................................................................................

| |
|---|
| **Kişilər və Qadınlar** |
| |

**FƏRDİ KUMİTE**

**Kişilər**

| Çəkisi | S.A.A.a | Təvəllüd | Dan\Kyu | Həkimin imzası |
|---|---|---|---|---|
| -60 kq | | | | |
| | | | | |
| -67 kq | | | | |
| | | | | |
| -75 kq | | | | |
| | | | | |
| -84 kq | | | | |
| | | | | |
| +84 kq | | | | |
| | | | | |

**Qadınlar**

| Çəkisi | S.A.A.a | Təvəllüd | Dan\Kyu | Həkimin imzası |
|---|---|---|---|---|
| -50 kq | | | | |
| | | | | |
| -55 kq | | | | |
| | | | | |
| -61 kq | | | | |
| | | | | |
| -68 kq | | | | |
| | | | | |
| +68 kq | | | | |
| | | | | |

**FƏRDİ KATA**

**Kişilər**

| | S.A.A.a | Təvəllüd | DAN/KYU | Həkimin imzası |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |

**Qadınlar**

| | S.A.A.a | Təvəllüd | DAN/KYU | Həkimin imzası |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |